QANUN № 02 (376), 2026, s. 123-130

**Məmmədova Gülnarə Malik qızı,**
Bakı Dövlət Universitetinin Beynəlxalq ümumi hüquq kafedrasının magistrantı
E-mail: mammadovagulnara1206@gmail.com

**UOT 341**
**DOI: https://doi.org/10.30546/2218-9130.043.2026.558**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ TERRORÇULUQ VƏ BEYNƏLXALQ HÜQUQUN ÇAĞIRIŞLARI: NORMATİV BAZA VƏ TƏTBİQ PROBLEMLƏRİ

***Açar sözlər:*** *qloballaşma, terrorçuluq, beynəlxalq hüquq, dövlət suverenliyi, insan hüquqları.*

***Ключевые слова:*** *глобализация, терроризм, международное право, государственный суверенитет, права человека.*

***Keywords:*** *globalization, terrorism, international law, state sovereignty, human rights.*

Qloballaşma müasir beynəlxalq münasibətlər sisteminin əsas müəyyənedici xüsusiyyətlərindən biri kimi çıxış edərək dövlətlərin siyasi, iqtisadi və hüquqi qarşılıqlı asılılığını əhəmiyyətli dərəcədə artırmışdır. Bu proses yalnız müsbət inteqrasiya meyillərini deyil, eyni zamanda beynəlxalq təhlükəsizliyə yönəlmiş yeni risk və təhdidləri də formalaşdırmışdır. Qloballaşmanın yaratdığı ən ciddi təhlükələrdən biri terrorçuluğun transmilli xarakter alması və beynəlxalq sülh və təhlükəsizlik üçün sistemli probləmə çevrilməsidir.

Müasir dövrdə terrorçuluq təkcə ayrı-ayrı dövlətlərin daxili təhlükəsizlik məsələsi kimi deyil, beynəlxalq hüququn tənzimləmə predmetinə daxil olan qlobal təhlükə kimi qiymətləndirilir. Bu baxımdan terrorçuluq ilə mübarizədə beynəlxalq hüququn normativ bazasının formalaşması və tətbiq mexanizmlərinin effektivliyi xüsusi aktuallıq kəsb edir.

Qloballaşma şəraitində terrorçuluğun mahiyyəti və fəaliyyət formaları əhəmiyyətli dərəcədə dəyişmişdir. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, maliyyə sistemlərinin liberallaşması və sərhədlərin nisbi şəkildə açılması terror təşkilatlarına geniş imkanlar yaratmışdır. Müasir terrorçuluq artıq lokal xarakter daşımır, müxtəlif regionları əhatə edən şəbəkə strukturlarına əsaslanır və ideoloji, maliyyə, logistika baxımından qlobal resurslardan istifadə edir. Terror aktlarının planlaşdırılması və icrası bir neçə dövlətin ərazisini əhatə edə bildiyi üçün bu cür fəaliyyətlərin qarşısının alınması yalnız milli hüquq çərçivəsində mümkün olmur. Nəticə etibarilə, terrorçuluq ilə mübarizə beynəlxalq hüquqi əməkdaşlıq və kollektiv təhlükəsizlik mexanizmlərinin gücləndirilməsini zəruri edir.

Beynəlxalq hüquqda terrorçuluq ilə mübarizənin normativ bazası əsasən XX əsrin 60-cı illərindən etibarən, xüsusilə mülki aviasiya təhlükəsizliyi və girov götürmə cinayətləri ilə bağlı beynəlxalq konvensiyaların qəbulundan sonra sistemli şəkildə formalaşmağa başlamışdır. Bu proses mərhələli xarakter daşımış və əsasən konkret terror fəaliyyətlərinin kriminallaşdırılmasına yö-

nəlmişdir. Beynəlxalq hüquq çərçivəsində terrorçuluq ilə mübarizə sahəsində qəbul edilən universal konvensiyalar mülki aviasiyanın təhlükəsizliyinə qarşı cinayət əməlləri, girov götürmə, diplomatik nümayəndəliklərə qarşı hücumlar, terrorçuluğun maliyyələşdirilməsi və kütləvi qırğın silahlarının yayılması kimi spesifik sahələri əhatə edir. Bu sənədlər dövlətlər üçün terror xarakterli əməllərin cinayət hesab edilməsi, cinayətkarların ekstradisiyası və ya mühakimə olunaraq məsuliyyətə cəlb edilməsi öhdəliyini müəyyən edir və beynəlxalq hüquqda bu yanaşma latınca "aut dedere aut judicare" (ya təhvil ver, ya mühakimə et) prinsipi kimi tanınır. Bununla yanaşı, beynəlxalq hüququn terrorçuluq ilə mübarizə sahəsində əsas zəif cəhətlərindən biri vahid terrorçuluq anlayışının formalaşdırılmamasıdır.

Beynəlxalq hüquqda terrorçuluğun və beynəlxalq terrorçuluğun vahid tərifi mövcud deyil. Qeyd olunur ki, "beynəlxalq konvensiyalar beynəlxalq terrorçuluq ilə mübarizə aparmaq üçün ayrıca beynəlxalq cinayət anlayışı müəyyən etməkdənsə, daha çox milli cinayət hüququ mexanizmlərindən istifadə etməyə çalışır" [9, s. 199]. Terrorçuluq adətən daxili və beynəlxalq terrorçuluğa bölünür, lakin hüquq ədəbiyyatında hazırda bu ikisi arasındakı sərhədin getdikcə daha da qeyri-müəyyənləşdiyi barədə fikirlərə rast gəlinir [10, s. 25].

Terrorçuluğun beynəlxalq hüquqda vahid tərifinin olmaması normativ bazanın tətbiqində ciddi problemlər yaradır. Dövlətlər terrorçuluq anlayışını öz milli təhlükəsizlik maraqlarına uyğun şəkildə şərh edir, bu isə beynəlxalq əməkdaşlığın effektivliyini zəiflədir. Bəzi hallarda silahlı müqavimət hərəkatları, azadlıq mübarizəsi və terrorçuluq anlayışları arasında sərhədlərin qeyri-müəyyənliyi hüquqi və siyasi mübahisələrə səbəb olur. Nəticədə, beynəlxalq hüququn normativ mexanizmləri universal xarakter daşısa da, onların tətbiqi selektiv və qeyri-bərabər şəkildə həyata keçirilir.

Terrorçuluq cinayəti ənənəvi olaraq beynəlxalq xarakterli cinayətlər sinfinə aid edilir və onun məsuliyyəti dövlətlərin milli hüquq normalarına uyğun olaraq müəyyən edilir. Bu baxış bucağından terrorçuluq cinayətləri bir sıra beynəlxalq sazişlərdə nəzərdən keçirilir. Hal-hazırda problem terrorçuluq yönümlü cinayətlər arasından beynəlxalq hüququn ciddi pozuntusu hesab olunan cinayətləri ayırmaqdır. Beynəlxalq terrorçuluq bəşəriyyətin sülhü və təhlükəsizliyinə təhdid yaradan bir fəaliyyət hesab olunur və beynəlxalq terrorçuluq cinayətləri insanlığa qarşı cinayətlər qrupuna daxil edilə bilər.

Beynəlxalq hüquqa və beynəlxalq hüquq doktrinasına uyğun olaraq, "Əgər təhlil edilən cinayət bəşəriyyətin təhlükəsizliyinə yönəlmiş ictimai münasibətlərə zərbə vurur, müasir mədəniyyətin əsaslarına təhlükə yaradırsa, bu zaman beynəlxalq cinayətdən, yəni bəşəriyyətin sülhü və təhlükəsizliyinə qarşı cinayətdən söhbət gedir. Dövlətlərin maraqlarını qorumaq, ictimai təhlükəsizliyi təmin etmək və dövlətlərarası əməkdaşlıq sahəsində baş verən hücumlar zamanı beynəlxalq terrorçuluq konvensiyaya əsaslanan cinayət kimi qəbul olunur". Ən ümumi formada, insanlığa qarşı cinayətlər 1945-ci il tarixli Nürnberq Beynəlxalq Hərbi Tribunalı Nizamnaməsində (London Nizamnaməsi) hüquqi baxımdan təsbit edilmiş və onların əsas tərkib elementləri müəyyən olunmuşdur [11, s. 19-23]. Nizamnaməyə görə, insanlığa qarşı cinayətlərə aşağıdakı əməllər (qətl, məhv etmə, sürgün və müharibə zamanı və ya ondan əvvəl mülki əhaliyə qarşı törədilmiş digər vəhşiliklər və ya siyasi, irqi və dini səbəblərlə təqiblər, Tribunalın yurisdiksiyasına aid olan hər hansı bir cinayətlə bağlı həyata keçirilən hərəkətlərdən asılı olmayaraq, həmin hərəkətlər müvafiq ölkənin daxili qanunlarını pozub-pozmadığından asılı olmayaraq) daxildir.

Qloballaşma dövründə terrorçuluq ilə mübarizədə BMT-nin rolu xüsusi əhəmiyyət kəsb

edir. BMT Təhlükəsizlik Şurası beynəlxalq sülh və təhlükəsizliyə təhdid yaradan terror fəaliyyətlərinə qarşı məcburedici hüquqi mexanizmlər formalaşdırmışdır. Xüsusilə XXI əsrin əvvəllərindən etibarən qəbul edilmiş BMT Təhlükəsizlik Şurası qətnamələri, o cümlədən 1373 (2001) saylı qətnamə və 1267 (1999) sanksiya rejimi dövlətlər üçün terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması, terrorçuların sığınacaq tapmasının əngəllənməsi və beynəlxalq informasiya mübadiləsinin gücləndirilməsi ilə bağlı konkret hüquqi öhdəliklər müəyyən etmişdir [9, s.200]. Bununla belə, Təhlükəsizlik Şurasının qərarlarının icrası da dövlətlərin siyasi iradəsindən asılı olduğu üçün bərabər səviyyədə həyata keçirilmir.

Beynəlxalq hüququn terrorçuluq ilə mübarizə sahəsində tətbiqi dövlət suverenliyi prinsipi ilə sıx şəkildə bağlıdır. Dövlətlər öz ərazilərində hüquq-mühafizə və təhlükəsizlik tədbirlərini həyata keçirməkdə müstəsna səlahiyyətə malikdirlər. Bu isə bəzi hallarda beynəlxalq əməkdaşlığın məhdudlaşmasına səbəb olur. Xüsusilə hərbi müdaxilə, ekstraterritorial əməliyyatlar və kəşfiyyat fəaliyyətləri zamanı beynəlxalq hüququn əsas prinsipləri ilə təhlükəsizlik maraqları arasında ziddiyyətlər meydana çıxır. Qloballaşma şəraitində terror təhlükəsinin transsərhəd xarakter alması bu ziddiyyətləri daha da kəskinləşdirir.

Terrorçuluq ilə mübarizədə beynəlxalq hüququn qarşılaşdığı əsas problemlərdən biri də insan hüquqları ilə təhlükəsizlik tələbləri arasında balansın qorunmasıdır. Antiterror tədbirləri çərçivəsində qəbul edilən sərt hüquqi mexanizmlər bəzən ifadə azadlığı, şəxsi toxunulmazlıq və ədalətli məhkəmə hüququ kimi fundamental hüquqların məhdudlaşdırılması ilə nəticələnir. Beynəlxalq hüquq insan hüquqlarının qorunmasını əsas prinsip kimi qəbul etsə də, fövqəladə vəziyyətlərdə bu hüquqların hansı həddə qədər məhdudlaşdırıla biləcəyi məsələsi doktrinal və praktik baxımdan mübahisəli xarakter daşıyır. Bu vəziyyət beynəlxalq hüququn normativ sabitliyinə və etibarlılığına mənfi təsir göstərir.

Qloballaşma həmçinin terrorçuluğun maliyyələşdirilməsi sahəsində yeni çağırışlar yaratmışdır. Beynəlxalq maliyyə sistemlərinin mürəkkəbləşməsi, qeyri-rəsmi pul köçürmə mexanizmləri və rəqəmsal valyutaların yayılması terror qruplarının maliyyə resurslarına çıxışını asanlaşdırmışdır. Beynəlxalq hüquq bu sahədə normativ mexanizmlər formalaşdırsa da, onların icrası texniki və institusional çətinliklərlə müşayiət olunur. Dövlətlər arasında maliyyə məlumatlarının mübadiləsi və nəzarət mexanizmləri hələ də kifayət qədər effektiv deyil.

Regional beynəlxalq təşkilatlar da terrorçuluq ilə mübarizədə mühüm rol oynayır. Avropa Şurası, Avropa İttifaqı, ATƏT və digər regional qurumlar çərçivəsində qəbul edilən hüquqi sənədlər regional səviyyədə əməkdaşlığın gücləndirilməsinə xidmət edir. Lakin regional mexanizmlərin effektivliyi də dövlətlərin siyasi maraqları və hüquqi sistemlərinin fərqliliyi səbəbindən məhdud qalır. Qloballaşma şəraitində terrorçuluğun universal xarakter alması regional yanaşmaların kifayət etmədiyini göstərir [11, s. 20].

Beynəlxalq hüququn terrorçuluq ilə mübarizə sahəsində institusional mexanizmləri də ciddi tənqid obyektidir. Beynəlxalq məhkəmələrin və hüquqi nəzarət orqanlarının səlahiyyətlərinin məhdudluğu terror fəaliyyətlərinə görə fərdlərin beynəlxalq səviyyədə məsuliyyətə cəlb edilməsini çətinləşdirir. Hazırkı şəraitdə terrorçuların cəzalandırılması əsasən milli məhkəmələrin səlahiyyətinə buraxılmışdır. Bu isə hüquqi boşluqların yaranmasına və cəzasızlıq riskinin artmasına səbəb olur.

Nəticə etibarilə, qloballaşma şəraitində terrorçuluq beynəlxalq hüquq üçün çoxşaxəli və mürəkkəb çağırışlar formalaşdırmışdır. Beynəl-

xalq hüquq terrorçuluq ilə mübarizə sahəsində geniş normativ baza yaratmış olsa da, onun effektivliyi tətbiq mexanizmlərinin zəifliyi, siyasi maraqların üstünlüyü və institusional məhdudiyyətlər səbəbindən tam təmin olunmur. Müasir dövrdə beynəlxalq hüququn qarşısında duran əsas vəzifə terrorçuluğun dəyişən formalarına uyğun çevik və balanslaşdırılmış hüquqi mexanizmlərin formalaşdırılmasıdır. Bu isə yalnız dövlətlərin kollektiv iradəsi, qarşılıqlı etimad və beynəlxalq hüququn fundamental prinsiplərinə sadiqlik əsasında mümkün ola bilər.

Azərbaycan Respublikasının Konstitusiyası terrorçuluq ilə mübarizənin hüquqi əsasını təşkil edən fundamental prinsipləri müəyyən edir. Konstitusiyanın 12-ci maddəsinə əsasən, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir [1, m.12]. Bu norma terrorçuluq ilə mübarizə tədbirlərinin həyata keçirilməsi zamanı insan hüquqlarının qorunmasının vacibliyini ön plana çıxarır. Eyni zamanda Konstitusiyanın 71-ci maddəsində hüquq və azadlıqların məhdudlaşdırılmasının yalnız qanunla və dövlət təhlükəsizliyinin təmin edilməsi məqsədilə mümkün olduğu göstərilir ki, bu da antiterror tədbirlərinin hüquqi çərçivəsini müəyyən edir.

Azərbaycan Respublikasında terrorçuluq ilə mübarizəni birbaşa tənzimləyən əsas normativ akt "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunudur. Həmin Qanunun 1-ci maddəsində terrorçuluq ictimai təhlükəsizliyə zərər vurmaq, əhalini qorxu altında saxlamaq və ya dövlət orqanlarının qərar qəbul etməsinə təsir göstərmək məqsədilə törədilən zorakı əməllər kimi xarakterizə edilir [8, m.1]. Bu tərif beynəlxalq hüquqda qəbul edilmiş yanaşmalara uyğun olmaqla terrorçuluğun əsas əlamətlərini əhatə edir. Qanunun 3-cü maddəsində terrorçuluğa qarşı mübarizənin əsas prinsipləri müəyyən edilir və qanunçuluq, insan hüquq və azadlıqlarına hörmət, beynəlxalq əməkdaşlıq bu prinsiplər sırasında xüsusi yer tutur.

Qanunun 4-cü maddəsində terrorçuluğa qarşı mübarizə aparan dövlət orqanlarının səlahiyyətləri müəyyən edilmişdir. Bu maddəyə əsasən, terrorçuluq ilə mübarizə sahəsində fəaliyyət müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir və bu fəaliyyət koordinasiya olunmuş şəkildə aparılmalıdır [8, m.4]. Qanunun 6-cı maddəsində terrorçuluğun qarşısının alınması üzrə preventiv tədbirlər nəzərdə tutulur ki, bu da terrorçuluq ilə mübarizənin yalnız cəza tədbirləri ilə deyil, qabaqlayıcı mexanizmlərlə həyata keçirildiyini göstərir [8, m.6].

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində terrorçuluq və terror xarakterli əməllər ağır və xüsusilə ağır cinayətlər kateqoriyasına aid edilmişdir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-cü maddəsinə əsasən terrorçuluq ictimai təhlükəsizliyi pozmaq, əhalini qorxutmaq və ya dövlət hakimiyyətinə təsir göstərmək məqsədilə törədilən partlayış, yanğın və digər zorakı əməllər kimi təsbit olunur və bu əməllərə görə 10 ildən 14 ilədək azadlıqdan məhrumetmə, ağır nəticələrə səbəb olduqda isə 14 ildən 20 ilədək azadlıqdan məhrumetmə və ya ömürlük həbs cəzası nəzərdə tutulur [4, m.214]. Eyni zamanda Cinayət Məcəlləsinin 214-1-ci maddəsində terrorçuluğun maliyyələşdirilməsi ayrıca cinayət tərkibi kimi müəyyən edilmişdir ki, bu da beynəlxalq hüququn müasir tələblərinə uyğun yanaşmanı əks etdirir.

Cinayət Məcəlləsinin 283-cü maddəsində milli, irqi və ya dini düşmənçiliyin salınması cinayət məsuliyyəti yaradan əməl kimi müəyyən edilmişdir; bu norma birbaşa terrorçuluğa aid olmasa da, ekstremizm və zorakı radikallaşma ilə bağlı halların qarşısının alınması baxımından dolayı hüquqi əhəmiyyətə malik hesab edilə bilər. Bundan əlavə, Məcəllənin 279-cu maddəsi qanunsuz silahlı birləşmələrin yaradılmasını və fəaliyyətini cinayət hesab edir ki, bu da terror

qruplaşmalarının formalaşmasının qarşısının alınmasına xidmət edir.

Azərbaycan Respublikasının terrorçuluq ilə mübarizə sahəsində beynəlxalq hüquqi öhdəlikləri milli qanunvericilikdə də öz əksini tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ölkənin qanunvericilik sisteminin tərkib hissəsidir, 151-ci maddəyə görə isə normativ hüquqi aktlarla beynəlxalq müqavilələr arasında ziddiyyət yarandıqda beynəlxalq müqavilələrin müddəaları tətbiq olunur; bu yanaşma həmçinin "Beynəlxalq müqavilələrin bağlanması, icrası və ləğv edilməsi haqqında" Qanunda da öz hüquqi təsbitini tapmışdır [1, m. 148]. Bu norma terrorçuluq ilə mübarizə sahəsində qəbul edilmiş beynəlxalq konvensiyaların birbaşa tətbiqinə hüquqi zəmin yaradır. Azərbaycan Respublikasının beynəlxalq antiterror konvensiyalarına qoşulması milli hüquq sisteminin beynəlxalq hüquqla harmoniyasını təmin edir.

Qloballaşma şəraitində terrorçuluğun və digər transmilli cinayət fəaliyyətlərinin maliyyələşdirilməsi ilə mübarizə məqsədilə Azərbaycan Respublikasında qəbul edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu xüsusi əhəmiyyət kəsb edir. Həmin normativ hüquqi akt beynəlxalq maliyyə təhlükəsizliyi standartlarına uyğun olaraq cinayət gəlirlərinin qanuniləşdirilməsinin və terror məqsədli maliyyə axınlarının qarşısının alınmasına yönəlmiş kompleks hüquqi mexanizmləri müəyyən edir. Qanunda maliyyə monitorinqi subyektlərinin vəzifələri, şübhəli əməliyyatların müəyyənləşdirilməsi və dövlət orqanları arasında məlumat mübadiləsinin hüquqi əsasları təsbit olunmuşdur. Qanunun əsas müddəalarına görə maliyyə institutları və digər hesabatlı şəxslər müştəri identifikasiyası aparmalı, risk əsaslı yanaşma tətbiq etməli və şübhəli maliyyə əməliyyatları barədə müvafiq icra hakimiyyəti orqanlarına məlumat təqdim etməlidirlər. Bu mexanizm qloballaşma dövründə terror qruplarının maliyyə resurslarına çıxışının məhdudlaşdırılmasına xidmət edir və beynəlxalq hüququn terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə qəbul etdiyi standartların milli hüquq sistemində tətbiqinə şərait yaradır. Eyni zamanda qanun beynəlxalq əməkdaşlığın hüquqi əsaslarını müəyyən etməklə xarici dövlətlərin maliyyə monitorinqi qurumları ilə informasiya mübadiləsinə imkan verir və beləliklə, transmilli cinayət şəbəkələrinin maliyyə fəaliyyətlərinin aşkarlanmasına töhfə verir. Bu normativ mexanizm terrorçuluq ilə mübarizənin yalnız hüquq-mühafizə tədbirləri ilə deyil, həm də maliyyə nəzarəti və iqtisadi təhlükəsizlik alətləri vasitəsilə həyata keçirilməsinin vacibliyini nümayiş etdirir və Azərbaycan Respublikasının beynəlxalq antiterror siyasətinə inteqrasiya olunmuş hüquqi yanaşmasını əks etdirir.

Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizənin hüquqi əsasları yalnız cinayət hüququ normaları ilə məhdudlaşmır, eyni zamanda milli təhlükəsizlik strategiyasını müəyyən edən normativ aktlarla da tənzimlənir. Bu baxımdan "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu xüsusi əhəmiyyət kəsb edir [7, s. 712]. Həmin qanunda dövlətin milli maraqlarının qorunması, cəmiyyətin və dövlətin təhlükəsizliyinə yönəlmiş təhdidlərin qarşısının alınması, o cümlədən terrorçuluq və ekstremizm kimi təhlükələrin neytrallaşdırılması dövlət siyasətinin əsas istiqamətləri sırasında göstərilir. Qanuna əsasən milli təhlükəsizlik dövlətin suverenliyinin, konstitusiya quruluşunun, ərazi bütövlüyünün, əhalinin həyat və sağlamlığının və ictimai sabitliyin qorunmasını əhatə edən kompleks tədbirlər sistemidir. Bu kontekstdə terrorçuluq yalnız cinayət hadisəsi kimi deyil, həm də milli təhlükəsizliyə yönəlmiş ciddi

strateji təhdid kimi qiymətləndirilir. Qanunda təhlükəsizliyin təmin edilməsində dövlət orqanlarının qarşılıqlı fəaliyyəti, profilaktik tədbirlərin həyata keçirilməsi, informasiya təhlükəsizliyi və beynəlxalq əməkdaşlıq mexanizmləri də nəzərdə tutulur ki, bu da terrorçuluq ilə mübarizənin sistemli və kompleks xarakter daşıdığını göstərir.

Beləliklə, "Milli təhlükəsizlik haqqında" Qanun terrorçuluğa qarşı mübarizənin yalnız hüquqi məsuliyyət mərhələsini deyil, həm də risklərin erkən müəyyən olunması, qarşısının alınması və milli təhlükəsizlik sisteminin davamlılığının təmin edilməsini əhatə edən geniş normativ baza formalaşdırır.

Qloballaşma şəraitində beynəlxalq hüquq normalarının milli hüquq sisteminə inteqrasiyası terrorçuluq ilə mübarizədə əsas şərtlərdən biri kimi çıxış edir. Azərbaycan Respublikasının qanunvericiliyi bu sahədə beynəlxalq hüququn əsas prinsiplərini nəzərə alaraq formalaşdırılmışdır. Bununla belə, beynəlxalq hüquqi mexanizmlərin tətbiqi zamanı dövlət suverenliyi, insan hüquqlarının qorunması və təhlükəsizlik maraqları arasında tarazlığın saxlanılması zərurəti qalmaqdadır. Azərbaycan qanunvericiliyində bu balansın qorunması hüquqi dövlət prinsiplərinə uyğun şəkildə təmin edilməyə çalışılır. Nəticə etibarilə, qloballaşma şəraitində terrorçuluq ilə mübarizə beynəlxalq hüquq və milli hüquq sistemlərinin qarşılıqlı əlaqəsini tələb edən mürəkkəb prosesdir. Azərbaycan Respublikasının normativ hüquqi bazası göstərir ki, terrorçuluq ilə mübarizə sahəsində qəbul edilmiş qanunlar beynəlxalq hüququn tələblərinə uyğun olmaqla yanaşı, milli təhlükəsizlik maraqlarını da təmin etməyə yönəlmişdir. Beynəlxalq hüquq normalarının effektiv tətbiqi və milli qanunvericiliyin təkmilləşdirilməsi terrorçuluğun qlobal təhdid kimi qarşısının alınmasının əsas hüquqi şərtlərindən biri olaraq qalır.

Beynəlxalq hüququn terrorçuluq ilə mübarizə sahəsində tətbiqi Azərbaycan üçün də bir sıra çağırışlar yaradır. Dövlət suverenliyi və beynəlxalq təhlükəsizlik öhdəlikləri arasında tarazlığın qorunması, insan hüquqları standartlarının təmin edilməsi və fövqəladə təhlükəsizlik tədbirlərinin hüquqi çərçivədə həyata keçirilməsi bu çağırışlar sırasındadır. Azərbaycan qanunvericiliyində terrorçuluq ilə mübarizə tədbirləri həyata keçirilərkən hüquqi dövlət və qanunun aliliyi prinsiplərinə riayət edilməsi əsas tələb kimi müəyyən edilir.

Qloballaşma şəraitində beynəlxalq hüquq normalarının milli hüquq sisteminə transformasiyası terrorçuluq ilə mübarizədə xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini daxili qanunvericilikdə əks etdirməklə normativ uyğunluğu təmin etməyə çalışır. Lakin beynəlxalq hüququn icra mexanizmlərinin məhdudluğu və siyasi faktorların təsiri bu prosesin effektivliyini müəyyən dərəcədə zəiflədir. Bu isə beynəlxalq hüququn terrorçuluq ilə mübarizədə normativ potensialının tam reallaşdırılmasına mane olur.

Beləliklə, qloballaşma şəraitində terrorçuluq beynəlxalq hüquq və milli hüquq sistemləri üçün kompleks çağırışlar yaradır. Azərbaycan Respublikasının təcrübəsi göstərir ki, terrorçuluq ilə mübarizədə effektiv nəticə əldə etmək üçün beynəlxalq hüquqi mexanizmlərlə milli qanunvericilik arasında harmoniyanın təmin edilməsi vacibdir. Beynəlxalq hüququn normativ bazasının təkmilləşdirilməsi, tətbiq mexanizmlərinin gücləndirilməsi və dövlətlərarası əməkdaşlığın dərinləşdirilməsi terrorçuluğun qlobal təhdid kimi neytrallaşdırılmasının əsas şərtlərindən biri olaraq qalır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər). – Bakı: Hüquq yayın evi, – 2018. – 92 s.
2. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının 13 iyun 1995-ci il tarixli 1057 nömrəli Qanunu. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/9460
3. Cinayət qanunları külliyyatı. – Bakı: Hüquq yayın evi, – 2014. – 1184 s.
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. – Bakı: Qanun, – 2025. – 488 s.
5. Azərbaycan Respublikasının "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" 10 fevral 2009-cu il tarixli 767-IIIQ nömrəli Qanunu. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/53369
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası/ F.Y.Səməndərovun ümumi redaktəsi ilə. – Bakı: Digesta, – 2008. – 1006 s.
7. Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" 29 iyun 2004-cü il tarixli 712-IIQ nömrəli Qanunu. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/5455
8. Azərbaycan Respublikasının "Terrorçuluğa qarşı mübarizə haqqında" 18 iyun 1999-cu il tarixli 687-IQ nömrəli Qanunu. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/3855
9. Чернядьева Н.А. Понятие «международный терроризм» в международных соглашениях ООН // – Вестник Саратовской государственной юридической академии. – 2012. № 4 (87), – с. 198–202
10. Степанова Е. Терроризм: проблемы определения и функционально-идеологическая типология // – Мировая экономика и международные отношения. – 2010. № 7, – с. 23–32.
11. Иногамова-Хегай Л.В. Международный терроризм как международное преступление против человечности в международном уголовном праве // – Вестник Краснодарского университета МВД России. – 2017. № 1, – с. 19–23.

**Маммадова Гульнара Малик гызы,**
магистрант кафедры международного общего права
Бакинского государственного университета

## ТЕРРОРИЗМ И ВЫЗОВЫ МЕЖДУНАРОДНОГО ПРАВА В КОНТЕКСТЕ ГЛОБАЛИЗАЦИИ: НОРМАТИВНЫЕ РАМКИ И ПРОБЛЕМЫ ИМПЛЕМЕНТАЦИИ

**РЕЗЮМЕ**

Нормативно-правовая база Азербайджанской Республики в области борьбы с терроризмом сформировалась как система сложных правовых механизмов, направленных на обеспечение национальной безопасности. Транснациональный характер терроризма в контексте глобализации обусловил необходимость гармонизации международно-правовых норм с национальным законодательством, и в этом направлении Конституция Азербайджанской Республики, Уголовный кодекс и Закон «О борьбе с терроризмом» установили основную правовую базу. Действующее законодательство предусматривает уголовную ответственность за террористические акты, превентивные меры, полномочия государственных органов и механизмы международного сотрудничества. В статье анализируются правовые и сравнительные аспекты развития нормативно-правовой базы в области борьбы с терроризмом, ее взаимодействие с международным правом, вопросы баланса между правами человека и безопасностью, а также проблемы применения в контексте глобализации.

**Mammadova Gulnara Malik,**
Master's student, Department of International
General Law, Baku State University

**TERRORISM AND THE CHALLENGES OF INTERNATIONAL LAW IN THE CONTEXT OF GLOBALIZATION: NORMATIVE FRAMEWORK AND IMPLEMENTATION PROBLEMS**

**SUMMARY**

The normative-legal framework of the Republic of Azerbaijan in the field of combating terrorism has been formed as a system of complex legal mechanisms aimed at ensuring national security. The transnational nature of terrorism in the context of globalization has necessitated the harmonization of international legal norms with national legislation, and in this direction, the Constitution of the Republic of Azerbaijan, the Criminal Code, and the Law "On Combating Terrorism" have established the main legal framework. The current legislation provides for criminal liability for terrorist acts, preventive measures, powers of state bodies, and mechanisms of international cooperation. The article analyzes the legal and comparative aspects of the development of the normative framework in the field of combating terrorism, its interaction with international law, issues of balance between human rights and security, and problems of application in the context of globalization.

**Redaksiyaya daxilolma tarixi: 28.01.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 10.02.2026**
**Çapa qəbul olunma tarixi: 17.02.2026**